# Ölkədə dövlət-din münasibətləri sağlam əsasda qurulub

Yanvarın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi kollegiyasının (DQİDK) ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Komitənin sədri Mübariz Qurbanlı hesabat məruzəsi ilə çıxış edərək dövlət başçısının 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etdiyini və bununla bağlı sərəncam imzaladığını xatırladıb. O, "Multikulturalizm ili" çərçivəsində Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq görüləcək işlərdən danışıb.

Sədr bildirib ki, Dövlət Komitəsi tərəfindən 2015-ci ildə respublikada dini durumun öyrənilməsi, təhlil olunması, bu sahədə proseslərin izlənilməsi, informasiya fondunun zənginləşdirilməsi, maarifləndirmə işinin aparılması, dini qurumlarla əməkdaşlığın genişləndirilməsi, onların fəaliyyəti üçün lazımi kömək göstərilməsi və dövlət qeydiyyatına alınmaları, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Respublikanın bölgələrində "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda ikigünlük regional konfranslar keçirilib. Ümumi sayı 19-a çatan və təxminən 8 min nəfərin iştirak etdiyi regional konfranslarda maarifləndirici mövzularda tanınmış mütəxəssislərin çıxışları da təşkil edilib. Bundan əlavə, 87 seminar-treninq, görüş və konfrans keçirilib. Ölkənin bütün bölgələrini əhatə edən 87 dini icmaya maliyyə vəsaiti ayrılıb. Həmin dini icmaların layihələri çərçivəsində keçirilən və ümumilikdə sayı 300-ə çatan tədbirlərdə 10 mindən artıq insanın iştirakı təmin olunub.

Diqqətə çatdırılıb ki, dini qurumların dövlət qeydiyyatına alınması prosesinin davam etdirilməsi nəticəsində il ərzində 52 dini icma dövlət qeydiyyatından keçib. Onlardan 49-u islam, 3-ü qeyri-islam təmayüllü dini icmadır. Qeydiyyata alınmış dini qurumların ümumi sayı 644-ə çatıb. İndiyədək dövlət qeydiyyatından keçmiş dini qurumlardan 620-si islam, 24-ü qeyri-islam təmayüllüdür. Sonunculardan 15-i xristian, 6-sı yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Mübariz Qurbanlı radikalizmlə mübarizə, dövlət-din münasibətləri, tolerantlıq, islam maarifçiliyi və işğal altında qalmış dini abidələrimizlə bağlı tanınmış ilahiyyatçı alimlərin müəllifi olduğu kitablar, eləcə də ölkəmizin tolerantlıq ənənələri, multikultural dəyərləri barədə buraxılan nəşrlər haqqında da məlumat verib. Respublikada ilk dəfə gözdən əlillər üçün Qurani-Kərimin brayl əlifbası ilə Azərbaycan dilində tərcüməsinin nəşr edildiyini diqqətə çatdırıb.

Komitə sədri həmçinin Azərbaycanda tolerantlıq ənənələri, dözümlülük, dinc birgəyaşayış mədəniyyətinin beynəlxalq aləmdə təbliği, eləcə də dini ekstremizm və terrorizm kimi bəşəriyyəti narahat edən problemlərdən birgə çıxış yolları axtarmaq məqsədilə keçirilən beynəlxalq tədbirlər barədə söhbət açıb.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, akademik Kamal Abdullayev yığıncaqda çıxış edərək ölkəmizdəki dini vəziyyət, dini maarifləndirmə işləri barədə danışıb. Dövlət müşaviri "Multikulturalizm ili" çərçivəsində bir sıra tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırıb.

Dövlət müşaviri Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməl üzərində formalaşdığını və inkişaf etdiyini bildirib. O vurğulayıb ki, milli-mənəvi dəyərlərin inkişafına dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Qeyd edilib ki, Azərbaycan multikulturalizminə olan maraq respublikamızın dünyada tarixi örnək dəyərlərə malik ölkə kimi tanıdılmasının nəticəsidir. "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının nəşri, "Azərbaycan multikulturalizmi" dərsliyinin yazılması, eyni adlı fənnin proqramının tərtib olunaraq dünya universitetlərinə təqdim edilməsi, dünyanın 11, Azərbaycanın 19 ali təhsil ocağında tədris olunan "Azərbaycan multikulturalizmi" fənninin faydası və lazımlılıq dərəcəsi bizim işimizin həm mürəkkəbliyini, həm çoxşaxəliliyini, həm də cəmiyyətimiz, gələcəyimiz üçün vacibliyini bir daha göstərir.

Dövlət Komitəsinin hesabat dövründə gördüyü işlər qənaətbəxş hesab edilib.

***AZƏRTAC***